# İnformasiya mədəniyyəti insanların informasiya cəmiyyətinə hazırlığının əsas göstəricisi kimi

Rasim Əliquliyev[1], Rəsmiyyə Mahmudova[2]
AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan
*director@ict.az, rasmahmudova@gmail.com*

***Xülasə*** **— Məqalədə insanların informasiya cəmiyyətinə hazırlığı məsələləri araşdırılır. İnformasiya mədəniyyəti informasiya cəmiyyətinə hazırlığın əsas amillərindən biri kimi təhlil edilir və insanlarda bu mədəniyyətin formalaşdırılması ilə bağlı bir sıra təkliflər verilir.**

***Açar sözlər– informasiya cəmiyyəti, informasiya bərabərsizliyi, informasiya mədəniyyəti, informasiya savadı***

## I. GİRİŞ

Hazırda bütün dünyada sürətlə bərqərar olan informasiya cəmiyyəti ölkəmizdə də məqsədyönlü şəkildə inkişaf etdirilir. Sivilizasiyanın inkişafının növbəti mərhələsi olan bu cəmiyyətin əsas fəlsəfəsi milli mənsubiyyətindən, dinindən, fiziki imkanlarından, sosial durumundan, yaşından asılı olmayaraq bütün insanlar üçün istənilən anda və istənilən yerdən lazımi informasiya və bilik əldə etmək imkanlarının yaradılmasıdır. Göründüyü kimi, artıq hər kəs üçün informasiya və biliklərin əlyetərliyinin təmin olunması üçün texnoloji vasitələr meydana çıxmışdır. Radio və televiziya kimi ənənəvi, həmçinin internet kimi yeni informasiya vasitələrinin mövcudluğu planetin hər bir sakininin həyatda ona lazım olan informasiyaya sərbəst çıxışının təmin edilməsinə şərait yaradır. Bu hüquqların təmin edilməsi üçün təhsil, iqtisadiyyat və s. sahələrdə müvafiq problemlərin həll edilməsi tələb olunur.

İKT-nin inkişafı nəticəsinə yaranan informasiya bolluğu bir tərəfdən müəyyən bir problemin həlli üçün qərar qəbul etməni asanlaşdırır. Digər tərəfdən isə, düzgün qərar qəbul etmək üçün insan qısa müddət ərzində böyük həcmdə informasiyanı emal etmək, onun doğruluq, tamlıq və s. kimi xüsusiyyətlərini araşdırmaq, informasiya mənbələrinin etibarlılığını müəyyən etmək məcburiyyətində qalır. Müxtəlif keyfiyyətli və həcmli informasiya yaddaşın yüklənməsinə səbəb olur və düşünmə qabiliyyətini azaldır. Nəticədə, intellektual fəaliyyətlə məşğul olan insanlar “informasiya yorğunluğu sindromu” adlanan psixi pozğunluğa məruz qalırlar. Ona görə də, hazırda insanı “nəyi oxumaq” deyil, “nəyi oxumamaq” sualı daha çox narahat edir. Bununla bağlı informasiya cəmiyyəti nəzəriyyəçisi E.Toffler yazırdı: “Bu gün informasiyanı toplamaq deyil, məlumatlar toplusunun içərisindən daha gərəkli olanları seçmək, onları düzgün təhlil etmək və vaxtında sifarişçiyə çatdırmaq bacarığı ön plana keçir [1].

Ona görə də insanların informasiya cəmiyyətinə hazırlanması hazırkı dövrün ən mühüm vəzifələrindən birinə çevrilir. Bu isə yalnız onlarda informasiya mədəniyyətinin formalaşdırılması ilə mümkündür.

“İnformasiya mədəniyyəti” anlayışının məzmunu insanın onu əhatə edən İnfosfera ilə qarşılıqlı əlaqələrini əks etdirir. İnformasiya mədəniyyəti – insanın informasiyanın qəbulu və mənimsənilməsi, yadda saxlanılması, emalı, mühafizəsi və təhlükəsizliyinin təmin edilməsi, təqdim edilməsi, informasiyadan istifadə edərkən hüquqi və etik normalara əməl edilməsi, həmçinin zərərli informasiyadan qorunma üsulları ilə bağlı olan bilik və bacarıqlarıdır [2].

## II. İNFORMASIYA CƏMIYYƏTINDƏ INSANIN HAZIRLIQ SƏVIYYƏSINƏ DAIR TƏLƏBLƏR

İnformasiya və bilik bu gün dövlətin və cəmiyyətin strateji resurslarına çevrilir, sosial-iqtisadi, texnoloji və mədəni inkişafın əsasını təşkil etməyə başlayır. Təxminən dörd əsr əvvəl məşhur ingilis filosofu Frensis Bekon tərəfindən deyilmiş “Kim informasiyanın sahibidirsə - o dünyanın sahibidir” fikri keyfiyyətcə yeni məna kəsb edir. İnformasiya texnologiyaları texnoloji faktordan müasir cəmiyyətin fəaliyyət elementinə çevrilir, yəni sosial inkişaf, ölkələrin iqtisadi rəqabətədavamlılığı, yeni iş yerlərinin yaranması və s. də bu texnologiyalardan asılı olmağa başlayır.

Qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, informasiya cəmiyyətinin formalaşması və intensiv inkişafı, insanların buna uyğun hazırlığı olmadan mümkün deyil. Yeni cəmiyyət insanların qarşısında çoxlu sayda yeni tələblər qoyur. Həm şəxsi, həm də professional fəaliyyətini səmərəli qurmaq üçün müasir texnologiyaların imkanlarında yüksək səviyyədə istifadə etmək, daim öz biliklərini artırmaq, eyni zamanda əldə edilmiş biliklərdən istifadə etməklə yeni bilik yaratmaq kimi tələblər insanın informasiya cəmiyyətinə hazırlığının əsasını təşkil etməyə başlayır. İnsanların müasir cəmiyyətin yaşayış tərzinə uyğunlaşması üçün onların informasiyanın əldə edilməsi, emalı, təhlili və yayılması sahəsindəki bilik və bacarıqlara yiyələnməsi zərurəti yaranır [3]. Çünki müasir cəmiyyətin xüsusiyyəti belədir ki, istənilən növ fəaliyyətin səmərəliliyi onun informasiya təminatının səviyyəsindən asılıdır.

Bunun mahiyyəti ondan ibarətdir ki, fəaliyyət göstərdiyi sahədən asılı olmayaraq hər kəs bu cəmiyyətə inteqrasiya olunmaq üçün mütləq informasiya texnologiyaları sahəsində müəyyən bilik və vərdişlərə malik olmalı və onlardan istifadə etməyi bacarmalıdır. Adətən, əməkdaşın peşəkarlığına müəyyən bilik, bacarıq və vərdişlərin

məcmusu kimi baxılırdı. Lakin indi yalnız müəyyən hazırlıq səviyyəsinin olmasına deyil, peşəkarlıq səviyyəsini daim inkişaf etdirməyə, yeni biliklər yaratmağa, əvvəllər əldə edilmiş bacarıq və vərdişlərin artırılmasına imkan verən potensialın olmasına əhəmiyyət verilir. Sözsüz ki, hər bir peşənin, vəzifənin tələbləri müxtəlifdir, bunlar işəgötürən tərəfindən işlənib hazırlanır, təkmilləşdirilir və s. Hazırda isə, peşəsindən və vəzifəsindən asılı olmayaraq bütün mütəxəssislər üçün yeni tələblər meydana çıxmışdır: lazımi informasiya və bilikləri vaxtında əldə etmək və öz fəaliyyətində tətbiq etmək.

Çünki əvvəlki cəmiyyətə xas olan hər hansı bir işi bacarmaq, nə isə istehsal etmək qabiliyyəti hazırkı dövr üçün yetərli deyil. Yeni yaranan cəmiyyətin özünəməxsus yeni tipli iqtisadiyyatı formalaşır və bu iqtisadiyyat informasiyalaşdırma vasitələrinin istehsalını, həmçinin informasiya məhsullarını və xidmətlərini, informasiya bazarını özündə birləşdirir. İnformasiya iqtisadiyyatı bir sıra fərqli xüsusiyyətlərə malikdir. Belə ki, informasiya sənayesi, informasiya məhsulları və xidmətləri həddən artıq elmi tutumludur. Ona görə də daxili və xarici bazarda onların keyfiyyəti və rəqabətədavamlılığı bu və ya digər ölkənin texnoloji inkişaf və yeni informasiya texnologiyalarından istifadə səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Eyni zamanda, informasiya iqtisadiyyatının məhsulları iqdisadiyyatın digər sahələrinin – sənaye, tikinti, nəqliyyat və s. inkişafı üçün əsas faktora çevrilir. Bu iqtisadiyyatın inkişafı əhalinin məşğulluğunun yeni strukturunu yaradır, fərdi əməyin və yaradıcılığın yeni formalarının inkişafını tələb edir [4].

Bu gün sistemli təfəkkürə malik olmaq, eksperimentə, əməkdaşlığa hazır olmaq - peşəkarlığı dəyərləndirən başlıca keyfiyyətlərdir. Hər bir sahədə problemləri aşkara çıxarmağı və həll etməyi bacaran, strateji təfəkkürə malik insanlara üstünlük verilir.

Sürətlə dəyişən dünyada yaşamaq və fəaliyyət göstərmək üçün insandan yeni şəraitə tez uyğunlaşmaq qabiliyyəti, daim təhsilini təkmilləşdirmək, öz sahəsində baş verən son tədqiqatlara, yeniliklərə diqqət yetirmək tələb olunur .

Son dövrlərdə bürokratik üsulla deyil, yeni üsulla karyera əldə etməyi əks etdirən termin meydana çıxıb - layihə təfəkkürü. Yalnız informasiya ilə, layihələrlə işləyən insanlar var ki, onları informasiya analitikləri adlandırırlar [4]. Çox vaxt onların daimi işi olmur, bir layihədən digər layihəyə keçirlər. Layihələrlə işləmək üçün insan bir sıra yüksək keyfiyyətlərə malik olmalıdır: yüksək yaradıcılıq qabiliyyəti; peşəkarlıq; müstəqil şəkildə araşdırmalar aparmaq; kollektivdə işləmək bacarığı; başqaları ilə ünsiyyət qurmaq qabiliyyəti və s. Beynəlxalq ünsiyyət vasitəsinə çevrilmiş xarici dillərdən 1-2-ni (xüsusən də, ingilis dilini) bilmək layihə fəaliyyəti ilə məşğul olmaq üçün çox vacibdir. Bu gün müxtəlif ölkələrdə yaşayaraq, İnternet üzərindən birgə layihələrdə iştirak etmək üçün geniş imkanlar var.

Göründüyü kimi, informasiya cəmiyyətinin formalaşması şəraitində insan resurslarına tələblər dəyişir. İKT-nin köməyi ilə göstərilən informasiya xidmətləri spektrinin genişlənməsi informasiya ilə işləmək üçün insandan yeni mədəniyyət forması tələb edir. İnformasiya ilə işləmək üçün lazım olan ənənəvi mədəniyyətə yeni tələblər əlavə olunur. Çünki İKT informasiya mübadiləsinin forma və üsullarını dəyişdirir. Bunun dərk edilməsi və mənimsənilməsi insanın biliklər cəmiyyətinə hazırlığının ayrılmaz hissəsidir.

Kompüter və digər İKT vasitələri – sadəcə informasiya resursunun istifadə edilməsi üçün texniki imkanlardır. Əsas odur ki, insan hansı informasiyanı necə mənimsəyir, onun informasiya potensialını nə təşkil edir. Yeni cəmiyyətin həyat şəraitinə uyğunlaşmaq üçün bu məsələlərin öyrənilməsi olduqca vacibdir. Bir çox tədqiqatçıların fikrincə, informasiyaya malik olmaq şəxsiyyət səviyyəsində, həmçinin ölkə səviyyəsində strateji üstünlük yaradır [5].

Müəssisə və təşkilatların kompüter texnikasına tələbatı, hər kəsin İnternetə çıxışı tamamilə təmin olunsa, bu sahədə ən mütərəqqi qanunlar qəbul edilsə belə, insanların informasiya cəmiyyətinə hazırlığı məsələsi həll olunmasa, bu hüquqi tədbirlər sadəcə xoş məramlar olaraq qala bilər. Ona görə də mütəxəssis hazırlığı zamanı professional keyfiyyətlərlə yanaşı, yeni texnologiyalar, eyni zamanda, informasiya, onun mahiyyəti, xüsusiyyətləri, emalı və yeni növ informasiya yaratma üsulları haqqında biliklər aşılanmalıdır. Bu biliklər informasiya mədəniyyətini formalaşdırılması üçün vacibdir.

Beləliklə, informasiya cəmiyyətinin vətəndaşı iki mədəniyyətin: texnoloji və informasiya mədəniyyətinin daşıyıcısına çevrilməlidir. Bunlardan hər hansı birinin olmaması və ya zəif olması insanın normal fəaliyyəti, hətta səhhəti üçün problemlər yaradar.

## III. İNFORMASİYA BƏRABƏRSİZLİYİ PROBLEMLƏRİ

İnformasiya cəmiyyətinin qurulması, insanın bu cəmiyyətdə yeri və informasiyaya sərbəst çıxış imkanlarının təmin olunması məsələsi artıq xeyli müddətdir ki, beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Hələ 2003 və 2005-ci illərdə uyğun olaraq Cenevrədə və Tunisdə informasiya cəmiyyəti məsələlərinə həsr olunmuş Ümumdünya sammitlərində bu məsələlər geniş müzakirə obyekti olmuşdur. İnformasiya cəmiyyəti konsepsiyasının əsasında dayanan əsas prinsiplərdən biri – informasiyaya ümumi əlyetərliyin təmin edilməsidir [6]. Bəşəriyyət tərəfindən toplanmış nəhəng həcmdə informasiyanın əlyetərliliyi probleminin həlli elə də asan deyil, yəni bu məsələni yalnız texniki məsələ hesab etmək olmaz. İnformasiya və biliklərin əlyetərlilik səviyyəsinin müxtəlifliyi cəmiyyətdə yeni bərabərsizliyə - informasiya bərabərsizliyinə gətirib çıxarır [5]. İnformasiya bərabərsizliyinin mahiyyəti ondan ibarətdir ki, informasiya cəmiyyətinin formalaşması nəticəsində yaranan yeni informasiya mühitinə çıxış imkanı ayrı-ayrı insanlar, müəssisələr, regionlar və hətta ölkələr üçün müxtəlifdir. Bununla əlaqədar son zamanlar “informasiya zənginləri” və “informasiya yoxsulları” kimi anlayışlardan da istifadə edilir.

Əvvəllər, İKT-nin inkişafı, aparat və proqram vasitələrinin ucuzlaşması sayəsində bu bərabərsizliyin

aradan qaldırılmasına ümid edilirdi, amma bir sıra tədqiqatçılar əks situasiyanı qeyd edirlər: informasiya bərabərsizliyinin səviyyəsi İKT-nin inkişafı ilə birlikdə çox sürətlə yüksəlir. Başqa sözlə, informasiyalaşdırma sahəsindəki yüksək inkişaf informasiya bərabərsizliyini daha da dərinləşdirir.

Hətta informasiya bərabərsizliyinin yeni sosial bərabərsizliyə səbəb ola biləcəyi barədə fikirlər söylənilir. Bir tərəfdən, informasiya texnologiyaları yeni imkanlar açaraq, sosial məkanı daraldır və sosial fərqliliyi azaldır. Digər tərəfdən, informasiyanın paylanması, müxtəlif insanların informasiyaya çıxış imkanının təmin olunması baxımından cəmiyyətdə müşahidə olunan qeyri-bərabərlik ona gətirib çıxarır ki, bir qisim insanlar digərlərinə nisbətən üstünlüyə malik olurlar. Bu isə tədricən, iqtisadi, sosial və ya siyasi üstünlüyə gətirib çıxarır [6, 7].

Qeyd edək ki, informasiya əlyetərliliyi problemi ilə bağlı olan informasiya bərabərsizliyi problemi bütün dünyanı narahat edən ümumbəşəri bir problemdir. Bir sıra inkişaf etməkdə olan ölkələr üçün əlyetərlilik problemi əhalinin əksər hissəsinin savadsızlığı ilə, inkişaf etmiş telekommunikasiya infrastrukturunun olmaması ilə, dil baryeri ilə (ingilis dilini bilməməklə - İnternetdəki informasiya resurslarının böyük bir hissəsi bu dildədir) əlaqədardır.

Amma bu məsələnin həlli daha çox insanların informasiya mədəniyyətinin səviyyəsi ilə bağlıdır. Hər hansı bir problemi həll etmək istəyən insanlar özlərinin informasiya tələbatını ödəmək üçün hansı informasiya mənbələrinə müraciət etməyi, informasiya sorğusunu məqsədyönlü şəkildə həyata keçirməyi, axtarış strategiyasını düzgün qurmağı, əldə etdikləri informasiyanın həqiqiliyini, informasiya mənbəyinin nə dərəcədə mötəbər olduğunu müəyyən etməyi, informasiya və biliklərin istifadəsi zamanı hüquqi və etik aspektləri nəzərə almağı bacarmalıdırlar [8].

## IV. NƏTICƏ

İnsanların informasiya cəmiyyətinin tələblərinə uyğunlaşması, bu cəmiyyətin yaratdığı imkanlardan istifadə edərək maddi-rifah halını yaxşılaşdıra bilməsi üçün onları bu cəmiyyətdə yaşamağa hazırlamaq lazımdır.

Buna nail olmaq üçün kiçik yaşlardan başlayaraq insanlarda informasiya mədəniyyətinin formalaşdırılması prosesinin həyata keçirilməsi olduqca vacibdir. İnformasiyanın əldə edilməsi və mənimsənilməsi, yadda saxlanılması, emalı, təqdim edilməsi, təhlükəsizliyinin təmin edilməsi haqqında bilik və bacarıqlar insanın informasiya mədəniyyətinin əsasını təşkil edir. Eyni zamanda, informasiya ilə işləyərkən hüquqi və etik normalara əməl olunması, təhlükəli informasiyadan qorunma bacarıqları da informasiya mədəniyyətinin vacib komponentləridir. Belə ki, hazırda qlobal informasiya məkanında insanlar özlərinin mənəvi-psixoloji sağlamlığı üçün təhlükəli olan ziyanlı informasiya ilə, kibertəhlükələrlə, internet-asılılıq və s. problemlərlə də rastlaşırlar. Bu problemlərin həlli yolu ilk növbədə onlarda informasiya mədəniyyətinin formalaşdırılmasından keçir.

## ƏDƏBİYYAT


[1] A.Toffler. Future Shock. New York: Random House, 1975, 562 p.

[2] R.M.Əliquliyev, R.Ş.Mahmudova. Fərdlərdə informasiya mədəniyyətinin formalaşdırılmasına struktur yanaşma. Ekspress-informasiya. İnformasiya cəmiyyəti seriyası. Bakı: "İnformasiya texnologiyaları" nəşriyyatı, 2011, 46 səh.

[3] R.M. Əliquliyev, R.Ş.Mahmudova. İnformasiya mədəniyyəti: mahiyyəti, formalaşdırılması problemləri və həlli yolları. Bakı Universitetinin xəbərləri.Sosial-siyasi elmlər seriyası, 2008, №1, s.137-145.

[4] О.Н.Вершинская. Информационно-коммуникационные технологии и общество. Ин-т соц.-экон. Проблем народонаселения РАН. М.:Наука, 2007. -203 с.

[5] К.К.Колин. Об актуальных проблемах формирования новой информационной культуры общества. Информационные технологии. - 2007. - № 8.

[6] К.А.Панцерев. Информационное общество: эволюция концепции в исторической перспективе. Вестник СПбГУ. Сер. 6, 2010, вып. 1, стр. 65-72.

[7] Т.А.Гринченко. Интернет. Этические проблемы. Мир связи и информатики. 2000, №5, с.92-95.

[8] Е.И.Кузьмин. Гуманитарные аспекты формирования информационной политики в условиях построения общества знаний,

[9] http://www.ifap.ru/pr/2004/041217aa.doc.